**Fəaliyyət dairəsi baxımından iki qisim aktyorlar var. Birinci qisim bütün həyatlarını yalnız kino fəaliyyətinə həsr edənlər, ikinci qisim isə ömrü boyu teatrda çalışan və zaman-zaman kino fəaliyyəti ilə məşğul olan aktyorlar. Bu da bir faktdır ki, tarixin bu və ya digər məqamlarında Azərbaycan kinosunun inkişaf etməsində bütün həyatlarını teatr sənətinə həsr etmiş aktyor və rejissorların müstəsna rolları olmuşdur.**

# TEATR AKTYORLARI KİNODA

Mənə gəldikdə isə, bütün yaradıcılıq fəaliyyətim kino sənəti ilə bağlı olsa da həm teatra və həm də radio-televiziya sahəsinə həmişə doğma münasibət bəsləmişəm. Təsadüfi deyil ki, həyatımın müxtəlif məqamlarında həm teatrda, həm də radio-televiziyada rejissor və aktyor kimi kifayət qədər uğurlu yaradıcılıq işlərim olub. Etiraf edim ki, bunların arasında seçim etmək məqamı gələndə teatr sənətinə münasibətdə daha doğma olmuşam.

Görünür, elə buna görədir ki, bir rejissor olaraq çəkdiyim filmlərdə həmişə teatr aktyorlarından daha çox istifadə etmişəm. Bu gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rejissor və aktyor sənəti üzrə pedaqoji fəaliyyətimin kökünü də elə burada axtarmaq lazımdır.

Teatrda çalışan sənət adamlarının kino fəaliyyəti haqqında, kino sənətçilərinin teatrla əlaqələri barəsində ara-sıra da olsa məqalələrə, elmi tədqiqat işlərinə rast gəlirəm. Amma elə bilirəm ki, bu barədə yazılmalı məqamlar çox, toxunmalı mətləblər kifayət qədərdir.

Bu yazımda bütün yaradıcılıq həyatını teatr sənətinə həsr etmiş, zaman-zaman kino xadimlərinin diqqətini də cəlb edən respublikamızın əməkdar artisti, dosent Azad Şükürov haqqında söhbət açmaq fikrindəyəm. Bizim universitetin yaradıcılıq kafedralarında çalışan sənət adamları öz imkanlarını nümayiş etdirmək üçün tez-tez Tədris Teatrının səhnəsindən istifadə edirlər.

2004-cü ilin əvvəlləri idi. Qış zaçot-imtahan sessiyası yenicə qurtarmış və tədris ilinin ikinci yarısına hazırlıq işləri başlamışdı. Mən də universitet müəllimlərinin gücündən istifadə edərək Tədris Teatrının səhnəsində, bir dramaturq olaraq müasir Azərbaycan teatrında əsərləri oynanılan filosof-yazıçı Firuz Mustafanın "Əqrəb bürcü" əsərini tamaşaya qoymaq fikrinə düşdüm.

Universitetimizin 80 illik yubileyinə həsr etdiyimiz bu tamaşanın əsas iştirakçıları da elə universitetin təcrübəli pedaqoqları - xalq tərəfindən sevilən populyar aktyorlar idi. Rol bölgüsünü belə qərarlaşdırdım. Qadın - xalq artisti Həmidə Ömərova, Kişi - əməkdar artist Ötkəm İskəndərov, Qonşu qadın - Fərqanə Quliyeva, Qonşu kişi-əməkdar artist Azad Şükürov, Polis - əməkdar artist Telman Əliyev, Oğlan - III kurs tələbəsi Elçin Əhmədov və Qonşu kişinin xanımı - Solmaz Əhmədova. Bu tamaşadan qabaq mən A.Şükürovu yaxşı tanıyırdım. Əvvəla, teatrda oynadığı Nadir şah, Dəli Domrul, Şeyx Nəsrullah və s. rollarını görmüşdüm, İncəsənət Universitetində bir yerdə pedaqoji fəaliyyət göstərirdik və ən əsası da o idi ki, biz Yeni Yasamalda qonşu idik.



"Yalan" bədii filminin çəkilişi zamanı - 2005-ci il

İndi də "Əqrəb bürcü" tamaşası birlikdə ilk yaradıcılıq işimiz olacaqdı. Azad cox böyük həvəslə işə girişdi.Məşq zamanı onun uzun müddətli teatr təcrübəsi müsbət mənada özünü büruzə verirdi. Çalışırdı ki, məni tək qoymasın. Dekorasiyaların hazırlanmasında, səhnəyə lazım olan bu və ya digər əşyaların tapılmasında mənə kömək edirdi.

Rol üzərində işləməyi də məni bir rejissor kimi razı salırdı. Xarakterimdəki səmimiliyə sadiq qalaraq qeyd etməliyəm ki, məşqlər hərdən qızğın mübahisələrlə, hərdən də yeyib-içməklə nəticələnirdi.

30 noyabr 2004 - cü ildə ictimai baxış keçirildi. Müvəffəqiyyət göz qabağında idi. Tamaşanı bir neçə dəfə oynadıq. Bu ara Mədəniyyət və Turizm Nazirliyinin qərarı ilə "Azərbaycanfilm" kinostudiyasında O. Fikrətoğlunun ssenarisi əsasında çəkiləcək "Yalan" filmi mənə həvalə edildi.

Filmdəki çox da böyük olmayan, daha doğrusu, epizodik bir rola-arabaçı Əli roluna Azad Şükürovu çəkmək qərarına gəldim. Bu rol kiçik olsa da mənim üçün filmdə əhəmiyyəti böyük idi. Çünki Qarabağ savaşında müdafiə dəstələrində qeyrətlə vuruşan, nizamlı Azərbaycan ordusu formalaşarkən isə tərxis edilən, lakin özünü cəbhəsiz, döyüşsüz təsəvvür edə bilməyən, elə buna görə də gənc döyüşçülərə əlindən gələn köməyi etməyə çalışan xeyli müharibə veteranı tanıyırdım.

2005-ci ilin yayında Qusar rayonunda meşədə çəkilişlər edirdik. Meşənin ən sıx yerində özlərinə düşərgə salmış "kəşfiyyatçı dəstə" olur ki, azuqəsiz, susuz qalır. Yerli şəraitə tam bələd olan əhali ara-sıra kənd məhsulları ilə əsgərləri təmin edir. Hərbi hissənin yerləşdiyi ərazinin tam məxfiliyini qoruyub - saxlamaq lazımdır.

Odur ki,"dəstəyə", xüsusilə yerli şəraitə nabələd olan, əsgəri xidmətə təzəcə çağrılmış gənclərə azuqə sarıdan yardım etmək də bir növ vətənə xidmətdir. Bu mənada kiçik də olsa, arabaçı Əli rolunun müharibə mövzusunda xüsusi çəkisi var.

Deyim ki, çəkilişlər zamanı A. Şükürov kinoda ilk rolu olsa da, bizi qətiyyən incitmədi. Filmin operatoru Amin Novruzov da onunla çox rahat işləyirdi. Rejissorun verdiyi tapşırığı kamera qarşısında çox rahat və dəqiqliklə yerinə yetirirdi. "Yalan" filmini 2006-cı ildə təhvil verdik. Mütəxəssislər də, tamaşaçılar da A.Şükürovun rolunu müsbət mənada qeyd etdilər.

- 2007-ci ildə İctimai televiziyanın "Carçı-film" studiyasında mənə İmir Məmmədlinin ssenarisi əsasında "Qovğalı kəndinin gecələri" televiziya bədii filmini çəkmək təklif olunanda da əsas rollardan birinə A. Şükürovu dəvət etdim. Komediya janrında çəkilən bu filmdə Azada Molla Qərib rolunu həvalə etdim. Orda - burda dualar yazmaqla başını girləyən Molla Qərib yaşadığı kəndin ən "dərin" mollası hesab olunurdu.

- "Qovğalı kəndinin gecələri" filmi dəfələrlə İctimai televiziyanın efirində nümayiş etdirilib. Filmə baxan sənət adamları da, elə adi tamaşaçılar da onun Molla Qəribini bəyəndiklərini deyirlər.

- Azad Şükürov 2003-cü ildə "Telefilm" yaradıcılıq birliyində rejissor Azər Zamanlının, C. Məmmədquluzadənin "Kişmiş oyunu" əsəri əsasında çəkdiyi "Oyun" tammetrajlı televiziya filmində baş rollardan birinə - Balasoltan ağa roluna çəkilib. Tanınmış yazıçı H. Mirələmovun ssenariləri əsasında rejissor Ələkbər Kazımovskinin çəkdiyi "Tənha durna uçuşu" (2003), "Toy" (2004) televiziya filmlərində maraqlı rollar oynayıb.

"STAR" Prodakşnın istehsalı olan rejissor Nadir Muqbilovun çəkdiyi "Prokuror" filmində prokuror Ömür roluna, yazıçı Anarın ssenarisi əsasında rejissor Ramiz Həsənoğlunun çəkdiyi "Cavid ömrü" filmində iclas sədri, Cingiz Abdullayevin ssenarisi əsasında rejissor Ənvər Əblucun çəkdiyi "Tərsinə çevrilmiş dünya" filmində Vasifin atası rollarına çəkilib.

**Əlbəttə, A. Şükürovun bir aktyor kimi yaradıcılığı əsasən teatrla bağlı olub. Onun teatr səhnəsindəki uğurları daha samballıdır. Amma mən inanıram ki, son illərdə Azadın yaradıcılığına diqqət yetirən kinorejissorlar ona daha məsuliyyətli işlər həvalə edəcəklər.**

● **Ramiz ƏZİZBƏYLİ,**
***xalq artisti, professor***